# 2022 – 2026-cı illər üzrə
# STRATEJİ İNKİŞAF PLANI

*Azərbaycan Universitetinin Elmi Şurasının*
*12 sentyabr 2022-ci il tarixli 01 saylı protokolu ilə*
*təsdiq edilmişdir.*

Mündəricat

1. Giriş
2.  ATM  haqqında qısa xülasə ………………………………......
3.“SWOT” analizi………………….……………………………
4. Xarici və daxili faktorların analizi....…………………….……
4.1. “Pestle”modelinə əsasən  analiz.....…………….……………
4.2. VRIO modelinə əsasən analiz.....……………….……………..…
5. Strateji məqsəd, hədəf və fəaliyyətlər..………………………

# 1. GİRİŞ

Bu strategiya Azərbaycan Universitetinin strategiyasının təşkilinə və təhlilinə yönəlmişdir. Burada ATM-nin işinə birbaşa təsir göstərən həm daxili, həm də xarici faktorlar analiz edilmişdir. Təhlillərin aparılmasında "SWOT", "PESTLE" və "VRİO" kimi modellərə, strategiya modelinin qurulmasında isə "Ansoff Growth Matrix"-ə istinad edilmişdir.

Azərbaycan Universiteti Azərbaycanda ilk özəl universitet olsa da, qısa bir müddətdə öz yol xəritəsinə uyğun addımlar atmışdır. Formalaşmış ali təhsil müəssisəsi kimi əmək bazarda yeni olmasına baxmayaraq bu cür sürətli inkişaf yüksək səviyyəli düşüncə tərzinə malik olan idarə heyəti, bacarıqlı və gənc müəllim heyəti, idarəetmədə beynəlxalq standartlara və yeniliklərə üstünlük verən administrativ heyətin iş birliyi sayəsində əldə edilmişdir. Bütün bunlara baxmayaraq, zəif tərəflər də mövcuddur ki, bu cəhətlər mütəmadi araşdırılır, potensial problemlər üzərində çalışılır və tövsiyələrə əsasən həll edilir.

## 2.ALİ TƏHSİL MÜƏSSİSƏSİ HAQQINDA QISA XÜLASƏ

Azərbaycanda özəl ali təhsilin əsasını qoymuş Azərbaycan Universiteti 1991-ci ildə təsis edilmişdir. Dövlət Ali Ekspert Komissiyasının 3 mart 1993-cü il tarixli, Təhsil Nazirliyi Kollegiyasının 8 aprel 1993-cü il tarixli qərarları ilə Azərbaycan Universiteti dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 mart 1995-ci il tarixli 72 saylı qərarı ilə Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının rəyinə əsasən Azərbaycan Universiteti, tərkibində orta ixtisas kolleci və ingilisdilli gimnaziya olmaqla, dövlət qeydiyyatına alınmışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Akkreditasiya Komissiyasının qərarına əsasən 24 fevral 2009-cu il tarixli 213 saylı əmrə əsasən ali təhsil müəssisəsi kimi təkrar akkreditə olunmuşdur.

Azərbaycan Respublikası Təhsil nazirinin 10.07.2009-cu il tarixli 929 saylı əmri ilə fəaliyyətinə verilmiş xüsusi razılığın müddəti daha 5 il uzadılmışdır.

2016–cı il fevralın 24-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Azərbaycan Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyətinə Ali təhsil fəaliyyətini müddətsiz davam etdirməyə icazə vermişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Akkreditasiya Şurasının qərarına əsasən Nazirliyin 20 iyul 2018 - ci il tarixli, F-520 nömrəli əmri ilə özəl ali təhsil müəssisəsi kimi 5 (beş) il müddətinə təkrar akkreditə olunmuşdur.

Azərbaycan Universiteti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrlərini, kollegiya qərarlarını və Universitetin nizamnaməsini rəhbər tutur.

Günümüzdə strateji planlama  dövlət, özəl qurumlar və eyni zamanda universitetlər üçün ən əsas zərurət halına gəlmişdir. Azərbaycan Universitetinin təqdim olunan 2021-2025-ci illər üçün hazırlanmış Strateji İnkişaf Planı gələcək vizyonunu və bu vizyona çatmaq üçün qarşıya qoyduğu hədəfləri əhatə edir.

Universitetin akademik və inzibati struktur bölmələrinin, maraqlı tərəfdaşların iştirakı ilə hazırlanan Strateji İnkişaf Planı müvafiq məqsəd və həmin məqsədlərə çatmaq üçün müəyyən edilmiş fəaliyyətlərdən ibarətdir.

**MİSSİYA:**

Azərbaycan Universiteti olaraq tələbələrimizi akademik fəaliyyətlərini uğurlu davam edə bilmələri və əmək bazarında tələb olunan bir mütəxəsis olmaları üçün

hazırlayırıq. Bu yöndə tələbələrin gələcək fəaliyyətlərinə dəstək ola bilən bütün imkanlardan istifadə edərək yol alan bir universitetik.

**VİZYON:**

Tələbələrimizin fərdi ehtiyaclarını başa düşmək, rəqabətə davamlı, iş sferasının tələblərinə cavab verən ixtisasçılar yetişdirmək, rollarımızı və öhdəliklərimizi tanımaq və müəyyən etmək, əməkdaşlarımızın məsuliyyətini artırmaq və effektivliyimizi ölçməklə keyfiyyətli xidmətlər təqdim etmək qarşıda duran əsas məqsədlərdir.

**ƏSAS DƏYƏRLƏRİMİZ**

- Şəxsiyyətə hörmət və bərabərlik
- Akademik azadlıq və məsuliyyət
- Şəfaflıq
- Peşəkarlıq
- Kreativlik
- Aktivlik
- Çeviklik
- Müasir baxış
- İndividual yanaşma
- Düşüncə azadlığı
- Modernləşmə
- Hər növ ayrıseçkiliyə qarşı mübarizə
- Milli-mənəvi dəyərlərə bağlılıq

## 4. STRATEJİ PLAN: STRATEJİ MƏQSƏD, HƏDƏF VƏ FƏALİYYƏTLƏR

**<u>MƏQSƏD 1:</u> Təlim və tədrisin keyfiyyətinin yüksəldilməsi, innovativ və yaradıcı yanaşmalarla zəngin təhsil ocağına çevrilmək**

Günümüzdə universitetlərdə yaradıcı və yenilikçi, bir sözlə fərqlilik yaradan təlim və tədris, regional və beynəlxalq səviyyədə universitetlər arasında ən vacib rəqabət amillərindən birinə çevrilmişdir. Bu bir faktdır ki, keyfiyyətli təhsil almış məzun və tədqiqatçı yetişdirmək, qlobal biliklərdən istifadə edərək yeni biliklər istehsal edən, bilikləri iqtisadi və sosial faydalara çevirən və bu prosesi informasiya və kommunikasiya texnologiyaları ilə inteqrasiya edə bilən universitetlərin rəqabət qabiliyyəti gələcəkdə artacaqdır.

Biliyin və tədqiqatın əsas mənbəyi olan universitetlərdən artan gözləntiləri əsas tutaraq Azərbaycan Universiteti fəaliyətində innovativ və yaradıcı yanaşmalara üstülük verən təlim və tədris ocağına çevrilməyi hədəfləmişdir.

**Hədəf 1. Universitet tərəfindən təklif olunan keyfiyyətli təhsili davamlı etmək və tələbələrin akademik bilik və bacarıqlarını inkişaf etdirmək və şaxələndirmək üçün mexanizmlər yaratmaq**

1.1.1 Hər üç ali təhsil səviyyəsinin təlim və tədrsi proqramlarının inkişaf etdirilməsi və keyfiyyətinə nəzarət etmək;

1.1.2 Biznes/iqtisadiyyat və mühəndislik/texnologiya sahələrində, bütün səviyyələrdə qlobal cəhətdən rəqabət qabiliyyətli tələbələr hazırlayan və SACS, AACSB, və ABET də daxil olmaqla müvafiq akkreditasiya orqanlarında akkreditasiyadan keçə biləcək akademik proqramlar işləyib hazırlamaq;

1.1.3 Universitetin təhsil verdiyi sahələrin müxtəlifliyini artırmaq;

1.1.4 Tədris proqramını əmək bazarının tələblərinə uyğunlaşdırılmaq;

1.1.5 Elektron universitetin yaradılması. Applikasiyanın tətbiqinin istifadəyə verilməsi. Elektron təhsil platformasını inkişaf etdirmək və bütün departamentlərdə qarşılıqlı əlaqə formasında tətbiq və inkişaf etdirmək;

1.1.6 Təlim və tədris proseslərində müəllim heyətinin peşə və pedaqoji səriştələrinin inkişafına dəstək vermək; yeni tədris metodları ilə müasir təhsil və təlim texnologiyalarının istifadəsini təşviq etmək;

1.1.7 Hər müəllimə düşən tələbə sayını beynəlxalq standartlara uyğunlaşdırılmaq;

1.1.8 Təlim və tədrisin effektiv və səmərəli şəkildə keçirilməsini təmin etmək və keyfiyyətinə nəzarəti yüksəltmək;

1.1.9 Tələbələrin beynəlxalq mübadilə proqramlarına cəlbini genişləndirmək.

**Hədəf 2:Yüksək ixtisaslı/keyfiyyətli akademik və inzibati işçiləri Universitetə cəlb etmək və onların inkişafına dəstək vermək**

1.2.1 İnzibati struktur bölmələrinin heyətində yüksək ixtisas dərəcəsi olan kadrlara üstünlük verilməsini təmin etmək;

1.2.2 İnzibati heyətin inkişafına dəstək olmaq, onlara karyerada irəliləmə imkanları yaratmaq;

1.2.3 Akademik keyfiyyət göstəriciləri yüksək olan yerli və xarici kadrları təlim və tədris prosesinə cəlb etmək;

1.2.4 Akademik heyətin inkişafına dəstək olmaq. Akademik heyət üçün məqsədli təlimlərin sayını və effektivliyini davamlı artırmaq, onların beynəlxalq sertifikatlar almasına dəstək olmaq;

1.2.5 Müxtəlif beynəlxalq mübadilə proqramlarına cəlb edilən akademik heyətin sayının davamlı şəkildə artırılmasını təmin etmək.

**Hədəf 3: Universitetdə tədris olunan proqramlarda iştirak edən yerli və xarici təhsilalanların sayının artırılması**

1.3.1 Tədris proqramları üzrə ümumi təhsilalanların sayını artırmaq;

1.3.2 Universitetə yüksək keyfiyyətli təhsilalanları cəlb etmək;

1.3.3 Magistratura səviyyəsində təhsili gücləndirmək və proqramlara qəbul ediləcək yüksək keyfiyyətli təhsilalanların sayının artırılması üçün mexanizmlər hazırlamaq.

**Hədəf 4: Universitetin əldə etdiyi keyfiyyət səviyyəsinin milli və beynəlxalq keyfiyyət təminatı standartları ilə müqayisə edilməsi, əldə edilən nəticələr əsasında universitetin bütün fəaliyyətinin davamlı korreksiya edilməsi.**

1.4.1 Keyfiyyət təminatına cavabdeh struktur bölməni inkişaf etdirmək;

1.4.2 Keyfiyyət təminatının ölçülməsi üçün yeni mexanizimlər formalaşdırmaq;

1.4.3 Keyfiyyətin qiymətləndirilməsi və artırılması planını işləyib hazırlamaq;

1.4.4 ESG standartlarına uyğunlaşdırılma prosesinə başlamaq.

**Hədəf 5: İngilisdilli təhsilin genişləndirilməsi və infrastrukturunun yaxşılaşdırılması**

1.5.1 Xarici dilin tədrisini gücləndirmək və onun infrastrukturunu yaxşılaşdıraraq dünya səviyyəsinə uyğunlaşdırmaq;

1.5.2 İnglis dilində tədris olunan proqramların keyfiyyətini artırmaq;

1.5.3 Universitet daxili xarici dildə təşkil olunan kurrikulumdan kənar fəaliyyətlərin sayını artırmaq;

1.5.4 Beynəlxalq imtahanların təşkilinin sayını artırmaq və tələbələri mütamadi cəlb etmək;

**<u>MƏQSƏD 2:</u> Universitetin elmi-tədqiqat və elmi-istehsalat sahələrində inkişaf etdirilməsi, bu istiqamətdə keyfiyyət siyasətinin yaradılması, rəqabətliliyin və nəticəyönümlülüyün artırılması**

Tədqiqat universiteti statusu almaq və tədqiqatların istehsalat meyilliliyini artırmaq Azərbaycan Universitetinin əsas məqsədlərindən biridir. Bu məqsədə nail olmaq üçün

Universitet nəticəyönümlü tədqiqatların aparılmasına və tədqiqat infrastrukturunun gücləndirməsini hədəfləyir.

**Hədəf 1: Universitetin daxilində aparılan perspektivli tədqiqatlara dəstək olmaq və gələcək elmi inkişafını təmin edəcək mərkəzləşmiş mexanizmi yaratmaq**

2.1.1. Müasir elmi qiymətləndirmə bazalarının (Web of Science, Scopus və s.) təqdim etdiyi alətlərdən istifadə etməklə ən müasir, innovativ tədqiqat istiqamətlərinin müəyyən edilməsi, əməkdaşların lokal spesifikasiyalar nəzərə alınmaqla bu istiqamətlərdə tədqiqatlara təşviq etmək;

2.1.2 İqtisadiyyat, humanitar və mühəndislik elmləri sahəsindəki tədqiqatlara təşviqetmə mexanizmləri hazırlamaq;

2.1.3 Akademik heyətin tədqiqat aparmalarına dəstək, həvəsləndirmə və motivasiya mexanizimini yaratmaq;

2.1.4 Yüksək keyfiyyətli tədqiqat fəaliyyətlərinin yerinə yetirilməsi məqsədilə zəruri elektron və ənənəvi mənbələrə çıxışın təmin etmək;

2.1.5 Universitetdə aparılacaq tədqiqat işlərinin sənaye, istehsal, sosial sfera ilə bilavasitə əlaqələndirilməsinə dəstəyin verilməsi, dövlət və özəl sektorlarda tədqiqat əməkdaşlıqlığın, strateji ortaqlığını qurmaq;

2.1.6 Müxtəlif innovativ sahələr üzrə elmi tədqiqat labaratoriyalarının təşkil edilməsi, onların işinə qabaqcıl özəl və digər qurumları cəlb etmək;

2.1.7 Beynəlxalq tədqiqat işbirlikləri, strateji ortaqlıqlar qurumaq və inkişaf etdirmək;

**Hədəf 2: Magistratura və doktorantura təhsilinin Avropa standartlarına adaptasiyası və qəbul edilən yüksək ixtisaslı tələbələrin sayının artırılması üçün mexanizmlərin hazırlanması**

2.2.1 Hər iki ali təhsil dərəcələrində təhsilin keyifiyyəinin artırılması və bunun üçün yeni mexanizmlərin tətbiq etmək;

2.2.2 Cəmiyyətin müxtəlif ehtiyaclarına cavab verəcək proqramlar üzrə təhsil təşkil etmək;

2.2.3 Magistratura və doktorantura dərəcələrində təhsil alan tədqiqatçıların universitetdəki elmi-tədqiqatlara cəlb etmək;

2.2.4 Magistr və doktorant dissertasiya mövzularının aktual, innovativ istiqamətlərdə təsdiq olunmasınnın təmin etmək;

2.2.5 Tədqiqat işlərinin ölkənin aktual problemlərinin həllinə yönləndirilməsinə şərait yaratmaq;

2.2.6 Magistratura pilləsində təhsil proqramlarının beynəlxalq akkreditasiyadan keçməsinə dəstək olmaq.

**Hədəf 3: Universitet və akademik heyət tərəfindən aparılan tədqiqatların tanıdılması**

2.3.1 Kadr seçimində elmi tədqiqat potensiallı kadrlarla üstünlük verməklə, universitetin tədqiqat potensialını gücləndirmək;

2.3.2 Əməkdaşların nüfuzlu beynəlxalq elmi konfranslarda iştirakının təşviq edilməsi, bu istiqamətdə onları dəstəkləmək, universitetin büdcəsinin formalaşdırılması zamanı bu məqsədlə xüsusi vəsaiti nəzərdə tutmaq;

2.3.3 Universitetdə tanınmış xarici universitetlərlə birgə elmi konfransların, seminarların, işçi görüşlərin keçirilməsini təmin etmək;

2.3.4 "Web of Science" və "Scopus" platformalarına daxil olan beynəlxalq elmi jurnallarda nəşrlərin və istinadların sayını artırmaq;

2.3.5 Aparılan tədqiqatların "Web of Science" və "Scopus" bazasına daxil edilmiş nüfuzlu nəşrlərdə dərc edilməsi üçün xarici dillərə mükəmməl şəkildə tərcümə edilməsini təmin edəcək sistem yaratmaq;

2.3.6 "Web of Science" və "Scopus" bazasına daxil edilmiş nüfuzlu nəşrlərdə məqalələrin çap edilməsini stimullaşdırmaq;

2.3.7 Tədqiqat layihələrinin yazılması və icrasında tədqiqatçılara inzibati dəstək verimək;

2.3.8 Müəllimlərin hər birinə düşən keyfiyyətli elmi nəşrlərin sayının artırımaq;

2.3.9 Universitetin yeni professor-müəllim heyəti üçün tədqiqat mühiti yaratmaq və dəstəyi artırmaq;

2.3.10 Professor-müəllim heyətinin araşdırmalara daha çox vaxt ayırmalarına imkan verən siyasət formalaşdırmaq;

2.3.11 Doktoranturadan sonra tədqiqatçıları universitetin elmi tədqiqatlarına cəlb etmək;

2.3.12 Müəllim və professor heyətinin xarici tədqiqatçılarla, beynəlxalq akademik kollektivlə araşdırma layihələrində iştirakını təmin etmək.

**Hədəf 4: Tədqiqat üçün maliyyə mənbələrinin şaxələndirilməsi və artırılması**

2.4.1 Universitetdə həyata keçirilən tədqiqat layihələrinin maliyyə mənbələrini artırmaq üçün mövcud mexanizmi inkişaf etdirmək;

2.4.2 Tədqiqatların dəstəklənməsi üçün milli və beynəlxalq donorlarla, şirkət, fond və təşkilatlarla, biznes, sənaye, istehsal sahələri ilə əməkdaşlıq qurmaq və inkişaf etdirmək;

2.4.3 Milli və beynəlxalq tədqiqat proqramlarına müraciətlərin sayını artırımaq;

2.4.4 Avropa Birliyi və beynəlxalq səviyyədə dəstəklənən digər layihələri çoxaltmaq və iştiraka təşviq etmək;

2.4.5 Biznes startap və qrant layihələrində fəal iştirakı təmin etmək.

**<u>MƏQSƏD 3:</u> Təlim və tədris proseslərinin təkmilləşdirilməsi, idarəetmə strukturunun inkişafı, daxili keyfiyyət təminatının yaradılması, informasiya mübadiləsinin sürətləndirilməsi, hesabatlılığın artırılması, infrastrukturun yaxşılaşdırılması**

**Hədəf 1: Universitetin mövcud idarəetmə və qərar qəbuletmə mexaniziminin strateji planla əlaqələndirilərək daha da təkmilləşdirilməsi**

3.1.1 İdarəetmə və qərar qəbul etmə prosesləri hazırlamaq və təsdiq etmək;

3.1.2 Universitet daxilində koorporativ idarəetmə mədəniyyətini qəbul etmək və inkişaf etdirilməsini təmin etmək;

3.1.3 Qərarqəbuletmə proseslərinə daxili və xarici maraqlı tərəfdaşların sistematik şəkildə cəlb olunmasını təmin etmək.

**Hədəf 2: Strateji planlama və icrasının institutsionallaşdırıması**

3.2.1 Akademik və inzibati struktur bölmələrinin öz strateji inkişaf planlarını hazırlamaları və icrasını dəstəkləmək;

3.2.2 Mərkəzləşdirilmiş koordinasiya sistemini inkişaf etdirmək;

3.2.3 Dövlət strategiyasına uyğun olaraq universitetin inkişafına çalışmaq.

**Hədəf 3: İnsan resursların planlanmasının institutsionallaşdırıması**

3.3.1 Ehtiyac yönümlü insan resursları formalaşdırmaq və davamlılığını təmin etmək;

3.3.2 Akademik və inzibati heyətin vəzifə təlimatlarını hazırlamaq;

3.3.3 Struktur bölmə rəhbərlərinin idarəetmə səriştələrini inkişaf etdirmək məqsədi ilə mütəmadi olaraq təlim proqramlarını həyata keçirmək;

3.3.4 Akademik və inzibati struktur bölmə rəhbərlərinin və heyətin məmnunluq səviyyəsini davamlı nəzarət altında saxlanmaq.

**Hədəf 4: Özünü qiymətləndirmə mədəniyyətinin inkişafını təmin etmək**

3.4.1 Akademik və inzibati struktur bölmələrin özünüqiymətləndirmə mexanizimini formalaşdırmaq və həyata keçrilməsini dəstəkləmək;

3.4.2 Universitetin akademik və inzibati fəaliyyətinin xarici qiymətləndirmə proseslərinə dəstək vermək;

3.4.3 Daxili keyfiyyət təminatı sistemini mükəmməlləşdirmək;

3.4.5 Hesabatlılığı əsas monitorinq alətinə çevirmək.

**Hədəf 5: Bütün iş proseslərinin təkmilləşdirilməsi və idarəçiliyin institutsionallaşdırılması**

3.5.1 İş proseslərini rəqəmsal mühitə köçürərək effektivliyi artırmaq, informasiya axınını tənzimləmək və bu prosesdə şəffaflığı təmin etmək;

3.5.2 Universitetin akademik və inzibati heyətinin iş fəaliyyətinin qiymətləndirilməsi sistemlərini davamlı inkişaf etdirmək;

3.5.3 Göstərilən elektron xidmətlərin təhlükəsizliyini və keyfiyyətini yüksəltmək

3.5.4 İnformasiya mübadiləsini strukturlararası təkmilləşdirmək.

**Hədəf 6: Tələbələrlə əlaqəli inzibati proseslərin elektronlaşdırılması və sadələşdirilməsi**

3.6.1 Akademik prosesləri təmin edən, akademik ünsiyyəti sadələşdirən və tələbələr üçün əlçatan edən proqram təminatını yaratmaq;

3.6.2 Tələbə Məlumat və Qeydiyyat sistemini təkmilləşdirmək və inkişaf etdirmək.

**Hədəf 7: Universitetdə kitabxana xidmətini və imkanlarını yaxşılaşdırmaq**

3.7.1 Kitabxananın elmi bazasının, çap və elektron materialının inkişafı üçün zəruri vəsaiti ayrımaq;

3.7.2 Kitabxana resurslarına elektron giriş imkanlarını artırmaq.

3.7.3 Kitabxananı təkmilləşdirmək, kitab sayını artırmaq və müasir tələblərə cavab verən oxu zalları yaratmaq.

**<u>MƏQSƏD 4:</u> Təklif olunan sosial xidmətlərin və sosial proqramların təkmilləşdirilməsi**

Universitetimizin əsas məqsədlərindən biri sosial inkişafdakı missiyamıza əsaslanaraq sosial xidmətlər, sosial proqramlar vasitəsilə cəmiyyətdəki müsbət dəyişikliklərə töhfələr verməkdir. Universitet bu istiqamətdə öncül mövqeyini gücləndirməyi hədəfləyir.

**Hədəf 1: Cəmiyyətin prioritet problemlərinə yönəlmiş tədqiqat və təhsil fəaliyyətinin dəstəklənməsi**

4.1.1 Universitet tərəfindən sosial xidmətlərə yönümlü layihələrə dəstək verimək və bu sahədə bacarıq və potensialı gücləndirmək;

4.1.2 Universitet əməkdaşları tərəfindən bu istiqamətdə fərdi şəkildə həyata keçirilən fəaliyyətləri dəstəkləmək;

4.1.3 Cəmiyyət üçün prioritet olan sosial problemlərin öyrənilməsinə həsr edilmiş tədqiqat layihələrini həyata keçirmək və dəstəkləmək;

**Hədəf 2: Cəmiyyətə töhfə verməyə yönəlmiş fəaliyyətləri inkişaf etdirmək**

4.2.1 Təhsil və tədqiqat müəssisələri ilə birgə seminarlar təşkil etmək, sosial fəaliyyət göstərmək;

4.2.2 Cəmiyyətin müxtəlif sosial problemlərinə həsr edilən maarifləndirmə proqramlarını təşkil etmək;

4.2.3 Müxtəlif proqramlar vasitəsilə müasir peşələrə yiyələnmə və inkişaf üçün sertifikat proqramları üçün zəmin yaratmaq;

4.2.4 Müxtəlif sosial layihə və proqramların reallaşdırılmasında beynəlxalq təşkilatlarla bərabər iştirak etmək.

**Hədəf 3: Məzunlarla Universitet arasında əlaqələrin gücləndirilməsi**

4.3.1 Karyera mərkəzinin fəaliyyətini təkmilləşdirilmək və məzunlarla əlaqə vasitələrini inkişaf etdirmək;

4.3.2 Məzunlar Asossiasiyasını yaratmaq;

4.3.3 Məzunların elektron məlumat bazasını formalaşdırmaq;

4.3.4 Məzunlarla daim əlaqədə olmaq və universitetimizdə təşkil olunan müvafiq tədbirlərdə məzunlarımızın iştirakını təmin etmək;

4.3.5 Məzunlarla bağlı qiymətləndirmə fəaliyyətlərini həyata keçirmək.

**MƏQSƏD 5: Universitetin beynəlmiləlləşməsi**

Müasir dünyada universitetlər üçün beynəlmiləlləşmə ən önəmli məqsədlərdən biri olmalıdır. Hazırda universitetlərin beynəlmiləlləşmə prosesinə diqqət yetirməsi bir sıra faktorlarla bağlıdır. Bu ilk növbədə biznesin sürətlə qloballaşması, tədrisin məzmununun beynəlmiləlləşmə kontekstinin genişlənməsi, məzunların müxtəlif ölkələrdə iş imkanları axtarması və nəhayət, qloballaşma prosesinin getdikcə daha çox fəaliyyət sahəsinə daha dərindən sirayət etməsi ilə bağlıdır. Bu səbəbdən tələbə və müəllim mübadiləsinin genişləndirilməsi, ikili diplom qazandıran proqramların yaradılmasına xüsusi diqqət yetirilməsi universitetə daha iddialı və potensiallı tələbə qazandırmaq üçün xüsusi önəm kəsb edir.

Beynəlmiləlləşmə universitetin akademik fəaliyyətini gücləndirərək, təlim, tədris və tədqiqat sahələrində xarici ali təhsil müəssisələri ilə inteqrasiya prosesini daha da sürətləndirir. Hədəflərimiz müəllim və tələbələrimizin beynəlxalq səviyyədə bacarıqlı və yaradıcı olmalarını təmin etməkdir.

**Hədəf 1: Mövcud beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və eyni zamanda yeni strateji beynəlxalq əlaqələrin qurulması**

5.1.1 Əsas məqsəd potensial yeni strateji tərəfdaşlıqları müəyyənləşdirmək və mövcud əməkdaşlıqları inkişaf etdirmək; (Bu universitetin akademik heyəti və eyni zamanda tələbələri üçün yeni imkanlar yaradacaq və onların daha effektiv şəkildə qlobal akademik cəmiyyətə inteqrasiya olunmasına imkan yaradacaqdır)

5.1.2 Əməkdaşlıq üçün güclü, etibarlı və nüfuzlu özəl və sahibkarlıq subyektlərini seçmək;

5.1.3 Tədqiqat sahəsində yeni əməkdaşlıq platformalarını yaratmaq;

5.1.4 Universitetin beynəlxalq səviyyədə fəaliyyətini təmin etmək;

5.1.5 Ölkədaxili və beynəlxalq səviyyədə yeni maliyyələşmə imkanlarını aşkar etmək.

**Hədəf 2: Ali təhsil sahəsində beynəlxalq nüfuzun artırılması**

5.2.1 Beynəlxalq reytinq sıralamasında yer almaq: Dünya universitetlərinin reytinqini müəyyən edən Times Higher Education, Quacquarelli Symonds World University Rankin QS və başqa bu sahədə fəaliyyət göstərən reytinq sistemlərinə müraciət etmək;

5.2.2 Təhsil sahəsində fəaliyyət göstərən təşkilat və asossiasiyalara üzvlük. Əsas hədəf Universitetdə həyata keçirilən təhsil prosesinin dünya təhsil sisteminə inteqrasiyasını təmin etməkdir. Bu səbəbdən EUA, IAU, EAIE, EAEC, TASSA və başqa təhsil asossiasiyalara üzvlük üçün müraciət edilməsi məqsədəuyğundur. Beynəlxalq universitet birliklərinə üzv olmaq,

onların təcrübələrindən istifadə etmək, beynəlxalq əlaqələri daha da gücləndirməklə birgə layihələrdə birlikdə işləmək imkanını genişləndirmək;

5.2.3 Beynəlxalq akkreditasiyanı həyata keçirmək. Müxtəlif ixtisasların beynəlxalq akkreditasiyadan keçirilməsinə dəstək vermək;

5.2.4 Beynəlxalq səviyyəli təhsilə yüksəlmək üçün keyfiyyət mədəniyyətini təmin etmək.

**Hədəf 3: Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbə, müəllim və inzibati işçilərin sayının artırılması**

5.3.1 Beynəlxalq akademik heyət və tələbə mübadiləsi proqramlarında iştirakçı sayını artırmaq və bu sahədə əməkdaşlıq imkanlarını genişləndirmək;

5.3.2 Akademik heyət, tədqiqatçılar və tələbələrə daha geniş imkanlar yaratmaq üçün Erasmus+, Mövlanə, DAAD, Universitet əsaslı proqramlar və başqa layihələr çərçivəsində iştirakı təmin etmək;

5.3.3 Tələbə mübadilə imkanlarını genişləndirmək;

5.3.4 Xarici tələbələri universitetə cəlb etmək;

5.3.5 Tələbələr üçün distant təhsil imkanlarını yaratmaq;

5.3.6 Akademik heyəti beynəlxalq akademik mübadilə proqramlarına cəlb etmək;

5.3.7 Universitetin akademik heyətinin professional inkişafı və mübadilə proqramlarında iştirakı üçün beynəlxalq təqaüdlərin alınmasına dəstək vermək;

5.3.8 Tərəfdaş müəssisələrin əməkdaşları ilə birgə tədqiqat fəaliyyətinin yaradılmasına dəstək vermək.

**Hədəf 4: Beynəlxalq ikili diplom proqramlarının yaradılması**

5.4.1 Yeni beynəlxalq ikili diplom proqramları yaratmaq və sayını artırmaq;

5.4.2 Təhsilin hər pilləsində beynəlxalq ikili diplom proqramlarının yaradılmasına dəstək olmaq;

5.4.3 Birgə magistr proqramları və sertifikat proqramlarının yaradılması.

**<u>MƏQSƏD 6:</u> Universitet fəaliyyətinin genişləndirilməsi**

Ali təhsil ocağının əsas məqsədi yüksək təhsil verməklə yanaşı təhsilalanların rahatlıqlarının təmin edilməsidir. Bu məqsədlə də tələbələrin rahat mühitdə təhsil almaları üçün növbəti addımları hədəfləyir.

**Hədəf 1: Kampusun yaradılması**

6.1.1 Tələbələrin rahatlığı üçün standartlara cavab verən kampus yaratmaq;

6.1.2 Rahatlığı təmin etmək məqsədilə universitetin tələbələri üçün yataqxananı istifadəyə vermək;

**Hədəf 2: Tələbələrin maraq dairələrinin genişləndirilməsi üçün şəraitin təmin edilməsi**

6.2.1 Universitet tələbələrinin bir yerdə davamlı fəaliyyətini təmin etmək üçün bir sıra əlavə dərnək və kurslar təşkil etmək;

6.2.2 Beynəlxalq standartlara cavab verən, son texnoloji avadanlıqlarla təchiz edilən laboratoriyalar yaratmaq;

6.2.3 Tələblərə cavab verən idman zalını yaratmaq;

**Hədəf 3: Kollecin yaradılması**

6.3.1 Universitet daxilində kollec yaratmaq və təhsilin növbəti pilləsinə uyğun fəaliyyət planını hazırlamaq;

6.3.2 Yerli kolleclə yanaşı beynəlxalq kollec imkanını tətbiq etmək.

**Hədəf 4: Yeni laboratoriyaların və mərkəzlərin qurulması**

6.4.1 **Elm-tədqiqat mərkəzi** olaraq həm universitet əməkdaşlarına, həm də gənc tədqiqatçılara kömək etmək, tədqiqat işinin aparılmasına dəstək vermək və beynəlxalq jurnallarda məqalələrin tərtib edilməsini öyrətmək;

6.4.2 **Peşə və ömür boyu tədris mərkəzinin** məqsədi keyfiyyətli və innovativ öyrənmə imkanlarını təmin etməklə sənaye imkanlarını genişləndirmək və cəmiyyətin ömür boyu peşəkar və şəxsi inkişafına marağını gücləndirmək;

6.4.3 **Akademik dürüstlük mərkəzində** aparılan tədqiqat işlərinin yazılması və tərtib olunması prosesində informasiyanın düzgün istifadəsi, yayılması, istinadların doğru göstərilməsi və ən əsası dürüstlük prinsiplərinə riayət edilməsini əsas götürmək;

6.4.4 **Sosial- Psixologiya mərkəzi** tələbələrin şəxsi inkişaflarına dəstək göstərməklə yanaşı, onların zehni sağlamlıq vəziyyətlərini gücləndirmək və peşəkar həyata başlamalarına şərait yaratmaq; Eyni zamanda digər ixtisası bitirən şəxslərə müəyyən kurs və seminarlar nəticəsində sosial işçi olma imkanını sunmaq;

6.4.5 **Xarici dil hazırlığı mərkəzi** universitet daxilində fəaliyyət göstərərək dil hazırlıqlarını daha əlçatan edəcək. Tələbələr və inzibati heyətlə yanaşı eyni zamanda kənardan qoşulan tələbələr müxtəlif dil biliklərinə yiyələnəcəklər. Bunun üçün isə universitetin maddi texniki bazasından (linqofon otaqları, TLC, komputer və proyektorlarla təchiz olunmuş otaqlar və s.) istifadə edərək rəqib kurs və dil mərkəzlərindən bir addım öndə olmaq;

6.4.6 **Beynəlxaq imtahanlara hazırlıq və Xaricdə təhsil mərkəzi** Pearson Exam Center kimi fəaliyyət göstərdiyindən və bu yöndə olan təcrübəsindən yol alaraq tələbələri daha düzgün məlumatlandırmaq və doğru materiallarla tədris etmək; xarici universitetlərdə tədris imkanları haqqında məlumatlandırmaq və qəbullarını almağa köməklik göstərmək; digər beynəlxalq imtahan mərkəzləri (İELTS\TOEFL\SAT) ilə əməkdaşlıq etmək;

6.4.7 **Tənqidi düşünmə mərkəzi və Oxu klubu** tələbələrə müxtəlif növ məruzə və əsərlərin oxunub təhlil edilərək müzakirəsini təmin edir. Mərkəzin əsas məqsədi tələbələrimizin düşüncələrinin formalaşması üçün lazımi mühiti yaratmaq və bütün vəsaitləri əlçatan etməkdir.

6.4.8 **İnnovasiyalar mərkəzi** günümüzün tələblərinə cavab verən bacarıq və vərdişləri istifadə edərək, tələbələrin innovativ fikirlərini sadəcə dilə gətirmələrinə ruhlandırmaqla yanaşı, eyni zamanda onları həyata keçirmələrinə dəstək olmaq; Bunun üçün davamlı seminar və workshoplar keçmək, start up layihələrini tanıtmaları üçün şərait yaratmaq;

6.4.9 **Tərcümə mərkəzi** olaraq həm tərcümə xidmətləri vermək, həm də bu sahədə təlim və təcrübə keçmək;

6.4.10 **Biznes etikası mərkəzinin** qarşısında duran məqsəd universitet tələbələri arasında əmək bazarının tələblərinə uyğun olaraq düzgün etik normalara riayət etmək və şirkət strategiyalarına cavab verən doğruları ayırd etməyi öyrətmək.